**Aksessuara Məhdud Zəmanət**

"Research In Motion Limited" şirkəti (bundan sonra "RIM"), istehsalçı və onun törəmə cəmiyyəti olan 4022422 saylı, Centrum House, 36 Station Road, Egham, Surrey, UK, TW20 9LF ünvanında qeydiyyata alınmış və Sizin BləkBeri Əl Cihazınızın xüsusi modeli ilə birlikdə işlədilməsi nəzərdə tutulan xarici aksessuarları (bunda sonra "Aksessuar") təqdim edən "Research In Motion UK Limited" şirkəti vasitəsilə Sizə, yəni istehlakçıya (bundan sonra "Siz") zəmanət verir ki, Aksessuar (a) ilkin istehlakçı kimi Siz Aksessuarı ilk olaraq aldığınız bir (1) ildən və (b ) (1) Sizin və RİM-in arasında olan BləkBeri İstehlakçı/Proqram Təminatı Lisenziya Müqaviləsinin (bundan sonra "Lisenziya Müqaviləsi") Sizin tərəfinizdən pozulmasından və ya ona xitam verilməsindən, və ya (2) Sizin (i) hazırkı Məhdud Zəmanəti, (ii) BləkBeri Əl Cihazı ilə birlikdə təqdim olunan hər hansı Məhdud Zəmanəti, (iii) BləkBeri aksessuarları ilə birlikdə təqdim olunan hər hansı Məhdud Zəmanəti və ya (iv) Aksessuar və/və ya BləkBeri Əl Cihazı ilə birlikdə təqdim olunan təhlükəsizlik göstərişlərini pozmağınızla qurtaran müddətdən qısa müddətə (bundan sonra "Zəmanət Müddəti") istehsal və materialla bağlı olan qüsurlardan azad şəkildə olacaqdır. Hazırkı Məhdud Zəmanət ötürülə bilməz. Zəmanət Müddətində Aksessuar Sizdən hissələrə və ya çəkilən əməyə görə haqq alınmadan RIM-in seçiminə əsasən üç (3) ay ərzində təmir olunacaq və ya dəyişdiriləcəkdir. RIM-lə ilə Aksessuarı və/və ya BləkBeri Həllini aldığınız satıcı və ya distributor (bunda sonra "RIM Həllini Təqdim Edən") arasında müqaviləyə əsasən, Zəmanət Müddəti ərzində Məhdud Zəmanətin yerinə yetirilməsi ilə bağlı məsuliyyət RIM-in və ya RIM Həllini Təqdim Edənin üzərində olacaqdır. Hazırkı Məhdud Zəmanət adi amortizasiyaya və ya normal korlanmaya və ya Aksessuar və ya onun hər hansı komponentinin RIM tərəfindən icazə verilməyən şəxs tərəfindən açıldığı və təmir olunduğu hallara şamil edilmir, və Aksessuarın səhv istifadə etmənin, rütubətin və ya mayenin, istiliklə yaxınlaşdırılmanın və ya istiliyə vermənin, qəzanın, sui istifadə etmənin, səhlənkarlığın, səhv tətbiq edilmənin nəticəsində dəyən zərərə görə dəyişdirilməsini, və ya RIM olmayan şəxs tərəfindən aparılan təmir və ya dəyişikliklər nəticəsində yaranan qüsurları əhatə etmir. Məhdud Zəmanət Aksessuarın üzərindəki fiziki xəsarətlərə şamil edilmir. Hazırkı Məhdud Zəmanət Aksessuar olmayan başqa digər ləvazimatlara şamil edilmir. Hazırkı Məhdud Zəmanət Aksessuarı açıq-aşkar RIM tərəfindən təsdiqlənməyən və ya təmin edilməyən aksessuarlarla, mallarla, xidmətlərlə, köməkçi və əlavə ləvazimatlarla birlikdə istifadə edilməsindən əmələ gələn nasazlıqlara və ya RIM-in bu cür nasazlıqların Aksessuarın özündən irəli gəlmədiyini aşkar etdiyi hallara şamil edilmir. Əlavə olaraq, əgər nasazlıq istifadəçinin Aksessuarla və ya BləkBeri Əl Cihazından və, xarici batareyalar və SİM kart da daxil olmaqla hər hansı BləkBeri aksessuarlarından, BləkBeri Masaüstü Proqram Təminatından və onlarla bağlı simsiz məlumat xidməti və sənədlərdən təşkil olunan BləkBeri Həllinin (bundan sonra "BləkBeri Həlli") hər hansı komponenti ilə birlikdə təqdim olunan təhlükəsizlik təlimatlarına riayət etməməyindən irəli gələrsə, Məhdud Zəmanət əhəmiyyətsiz ola bilər və əgər əhəmiyyətsiz deyildirsə, o tətbiq edilməyəcəkdir. **Sizin Aksessuarınla bağlı müştəri xidmətləri barədə təlimatlarla tanış olmaq üçün Aksessuarlarla birlikdə təqdim olunan sənədlərə nəzər yetirməniz xahiş olunur .**

SİZİN YURİSDİKSİYANIZDA TƏTBİQ OLUNAN QANUNLARIN AÇIQ-AŞKAR QADAĞAN ETDİYİ HALLAR İSTİSNA OLMAQLA, AKSESSUARIN BURADA GÖSTƏRİLDİYİ KİMİ TƏMİRİ VƏ YA DƏYİŞDİRİLMƏSİ SİZƏ VERİLƏN ÖHDƏLİKLƏRİN MÜSTƏSNA TƏMİNATI VASİTƏSİDİR. HAZIRKI MƏHDUD ZƏMANƏT, MALIN XİDMƏTƏ YARARLIĞI, MALIN XİDMƏTƏ YARARLIQ KEYFİYYƏTİ, GÖZLƏNİLƏN ETİBARLILIĞI, MALIN ƏYYƏNATA VƏ YA MƏQSƏDƏ UYĞUNLUĞU, MÜLKİYYƏT HÜQUQU, POZULMANIN YOLVERİLMƏZLİYİ VƏ YA DİGƏR ƏSASLA QANUNDAN, ƏNƏNƏDƏN, İŞGÜZAR ADƏTDƏN VƏ TİCARƏT ADƏTLƏRİNDƏN İRƏLİ GƏLƏN BƏYANAT, ZƏMANƏT, TƏSDİQ, QARANTİYA VƏ YA ŞƏRT DƏ DAXİL OLMAQLA (ANCAQ BUNUNLA MƏHDUDLAŞMADAN) AÇIQ-AŞKAR QEYD OLUNAN VƏ YA EHTİMAL OLUNAN BÜTÜN DİGƏR BƏYANATLARIN, ZƏMANƏTLƏRİN, ŞƏRTLƏRİN, TƏSDİQLƏRİN, VƏ YA QARANTİYALARIN ƏVƏZİNƏ TƏQDİM OLUNUR. NƏ RIM, NƏ DƏ RIM HƏLLİNİ TƏQDİM EDƏN HEÇ BİR HALDA SİZƏ MÜNASİBƏTDƏ MƏSULİYYƏT DAŞIMAYACAQ VƏ SİZ BUNUNLA AKSESSUARIN İSTİFADƏSİNDƏN İRƏLİ GƏLƏN VƏ ONUNLA BAĞLI SİZƏ ÖDƏNİLƏSİ DOLAYI, İQTİSADİ, XÜSUSİ, TİCARƏT, GÖZLƏNMƏYƏN, CƏZA XARAKTERLİ VƏ TƏSADÜFİ ZİYANLARIN (ƏLDƏN ÇIXMIŞ FAYDA, BİZNES MƏNFƏƏTİNİN VƏ YA GƏLİRİNİN İTİRİLMƏSİ, MƏLUMATI İTİRİLMƏSİ, GECİKDİRİLMƏ VƏ YA GÖZƏNİLƏN QƏNAƏTİ ANLAMAMAQ NƏTİCƏSİNDƏ DƏYƏN ZİYAN DA DAXİL

OLMAQLA, ANCAQ BUNUNLA MƏHDUDLAŞMADAN) ƏVƏZİNİ ÖDƏNİLMƏSİNDƏN , RIM VƏ YA RIM HƏLLİNİ TƏQDİM EDƏN BU ZİYANLARIN MÜMKÜNLÜYÜ BARƏDƏ XƏBƏRDAR OLSA BELƏ, İMTİNA EDİRSİNİZ. BU MƏHDUDİYYƏT ZİYANLARIN DELİKTƏ (SƏHLƏNKARLIQ DA DAXİL OLMAQLA), MÜQAVİLƏYƏ VƏ YA ZƏMANƏTƏ VƏ YA DİGƏR HÜQUQA VƏ YA İDDİALARA ƏSASƏN TƏLƏB OLUNMASINA, MÜDAFİƏ EDİLMƏSİNƏ VƏ MƏHKƏMƏ İDDİASI VƏ YA TƏLƏBİ VASİTƏSİ İLƏ TƏLƏB EDİLMƏSİNƏ ŞAMİL EDİLMƏSİ ÜÇÜN NƏZƏRDƏ TUTULUR VƏ ONLARDAN ASILI OLMAYARAQ TƏTBİQ EDİLİR. HEÇ BİR HALDA RIM-in SİZƏ VƏ YA SİZİN VASİTƏNİZLƏ VƏ YA SİZİN ADINIZDAN İDDİA QALDIRAN ÜÇÜNCÜ ŞƏXSƏ MÜNASİBƏTDƏ OLAN MƏSULİYYƏTİNİN DƏYƏRİ SİZİN ALDIĞINIZ AKSESSUARIN ALIŞ QİYMƏTİNDƏN VƏ YA AKSESSUARIN TƏMİR VƏ YA DƏYİŞDİRİLMƏSİNİN QİYMƏTİNDƏN (HANSI DAHA ÇOX OLARSA) ARTIQ OLA BİLMƏZ. ANLAŞILMAZLIĞI ARADAN QALDIRMAQ MƏQSƏDİ İLƏ, BURADA HEÇ NƏ RIM-in VƏ YA ONUN İŞÇİLƏRİNİN VƏ YA AGENTLƏRİNİN VƏ YA RIM HƏLLİNİ TƏQDİM EDƏNİN SƏHLƏNKARLIĞININ NƏTİCƏSİ OLAN ÖLÜM HADİSƏSİ VƏ YA ŞƏXSƏ XƏSARƏTƏ GÖRƏ RIM-in VƏ YA RIM HƏLLİNİ TƏQDİM EDƏNİN MƏSULİYYƏTİNİ İSTİSNA ETMİR VƏ YA MƏHDUDLAŞDIRMIR.

HAZIRKI MƏHDUD ZƏMANƏT SİZƏ XÜSUSİ HÜQUQLAR VERİR VƏ EYNİ ZAMANDA SİZİN ÖLKƏDƏN ÖLKƏYƏ DƏYİŞƏN DİGƏR HÜQUQLARINIZ DA OLA BİLƏR. BƏZİ ÖLKƏLƏR GÖZLƏNMƏYƏN VƏ TƏSADÜFİ ZİYANIN ÖDƏNİLMƏMƏSİNİ İSTİSNA ETMƏYƏ VƏ ÜZƏRİNDƏ MƏHDUDİYYƏTLƏRİN QOYULMASINA İCAZƏ VERMƏYƏ BİLƏR, EHTİMAL OLUNAN ZƏMANƏTİN VƏ YA ŞƏRTİN NƏ QƏDƏR DAVAM ETMƏSİ NƏ MƏHDUDİYYƏTİN QOYULMASINA İCAZƏ VERMƏYƏ BİLƏR, VƏ YA ZƏMANƏTİN ƏHƏMİYYƏTSİZ HESAB EDİLƏ BİLMƏSİ ÜÇÜN MÜDDƏALAR NƏZƏR TUTA BİLƏR. BELƏ OLAN HALDA, YUXARIDA GÖSTƏRİLƏN BƏZİ MƏHDUDİYYƏTLƏR VƏ YA İSTİSNALAR SİZƏ ŞAMİL EDİLMƏYƏ BİLƏR. HAZIRKI BƏND SİZİN İMPERATİV HÜQUQLARINIZA, SİZİN İSTEHLAKÇI KİMİ BU CÜR İMPERATİV HÜQUQLARINIZ OLDUQCA, TƏSİR ETMƏYƏCƏKDİR.

RIM tərəfindən hər pozuntu nəticəsində əmələ gələn tələb etmə hüququndan imtina bu cür imtinanın davamedici olması və digər pozuntu nəticəsində əmələ gələn tələb etmə hüquqlarından imtina etməsi demək deyildir.

Hüquqların ziddiyyətini tənzimləyən hüquq sahəsi istisna olmaqla hazırkı , Məhdud Zəmanət İngiltərə və Uels qanunvericiliyi əsasında tənzimlənir və təfsir olunur. Hazırkı Məhdud Zəmanətin tərəfləri (bunda sonra birlikdə "Tərəflər", ayrılıqda "Tərəf" adlandırılacaqlar) razılaşırlar ki, Malların Alqı-satqısı üzrə Beynəlxalq Müqavilələr haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyasının bütünlüklə hazırkı Məhdud Zəmanətə tətbiqi bununla istisna olunur. Hazırkı Məhdud Zəmanətdən irəli gələn və onunla bağlı bütün təzadlar və mübahisələr son olaraq beynəlxalq arbitraj tərəfindən həll olunacaqlar. Arbitrin qərarı qətidir və Tərəflər üçün məcburi hüquqi qüvvəyə malikdir (aşkar səhv buraxılan hallar istisna olmaqla). Arbitrin qərarı yazılı tərtib olunmalı və əsaslandırılmalıdır. Arbitrin qərarında Tərəflərin arbitraj xərclərini arbitrin lazım bildiyi hissələrdə ödənilməsi nəzərdə tutulmalıdır. Arbitraj: (i) İngiltərə, London şəhərində keçiriləcək; (ii) İngilis hüququna uyğun olaraq aparılacaq; (iii) ingilis dilində aparılacaq; (iv) Beynəlxalq Ticarət Palatasının Arbitraj Qaydalarına (bunda sonra "Qaydalar") uyğun olaraq təşkil ediləcək; (v) qeyd olunan Qaydalara uyğun olaraq təyin olunmuş və Tərəflərin arbitri təyin etdiyi vaxtdan otuz (30) gün ərzində razılaşdırdıqlarına uyğun olaraq bir arbitr tərəfindən baxılacaq; arbitr təyin edə bilmədikdə arbitr hər hansı Tərəfin müraciəti əsasında Britaniya Kompüter Cəmiyyətinin Prezidenti tərəfindən (və ya Prezident tərəfindən onun adından çıxış etməsi üçün lazımi qaydada təyin etdiyi şəxs) təyin olunacaqdır. RIM-in icazəsi olmadan Tərəflər arasında olan və ya Sizdən başqa digər şəxsin iştirakı ilə heç bir mübahisə birləşdirilə və ya bir yerdə baxıla bilməz.

Əgər hazırkı Məhdud Zəmanətin hər hansı müddəası əhəmiyyətsiz və ya etibarsız elan olunarsa, bu əhəmiyyətsizlik və etibarsızlıq Məhdud Zəmanəti bütövlükdə əhəmiyyətsiz və ya etibarsız etməyəcəkdir, və (o qarşılığın olmamağına gətirib çıxaran hallar istisna olmaqla) Məhdud Zəmanətin tərkibində həmin əhəmiyyətsiz və ya etibarsız müddəa olmadığı kimi başa düşülür və hər bir Tərəfin hüquq və öhdəlikləri müvafiq olaraq təfsir edilir və icra olunur.

Əgər hazırkı Məhdud Zəmanət ingilis dilindən başqa digər bir dilə tərcümə edilərsə, ingilis dilində olan versiya ilə onun tərcüməsinin mənaları arasında ziddiyyət və ya uyğunsuzluq olduğu zaman ingilis dilində olan versiya üstün hüquqi qüvvətə malik olacaqdır.

Əgər hazırkı Məhdud Zəmanətlə Aksessuarın qabında olan məhdud zəmanət arasında ziddiyyət varsa, hazırkı Məhdud Zəmanətin müddəaları həmin ziddiyyətlərin olduğu həcmdə tətbiq ediləcəkdir.

XƏBƏRDARLIQ: Bu Aksessuar YALNIZ müvafiq BləkBeri Əl Cihazı ilə birlikdə işlədilməsi üçün nəzərdə tutulur. Bu Aksessuarın Sizin BləkBeri Əl Cihazınıza uyğun olub-olmadığını müəyyən etmək üçün Sizin Quraşdırılma və Başlamaq üzrə Təlimat və ya Başlamaq üzrə Təlimata (hansı tətbiq olunursa) müraciət etməniz xahiş olunur. Hər hansı başqa cür istifadə hazırkı Aksessuara Məhdud Zəmanəti əhəmiyyətsiz edir və RIM bu Aksessuarı müvafiq BləkBeri Əl Cihazından başqa digər cihazlar və aksessuarlarla birlikdə istifadə edilməsindən irəli gələn Sizə və ya hər hansı üçüncü şəxsə dəyən ziyana görə Sizin və ya hər hansı üçüncü şəxsin qarşısında cavabdeh deyildir.

© 2008 Research In Motion Limited. Bütün hüquqlar qorunur. BləkBeri və RIM-ə aid nişanların, təsvirlərin və simvolların qrupu Research In Motion Limited-in müstəsna mülkiyyətdirlər. RIM, Research In Motion, “Always On, Always Connected”, “envelop in motion” simvolu və BləkBeri loqosu ABŞ Patent və Əmtəə Nişanı İdarəsində qeydiyyata alınıblar və digər ölkələrdə qeydiyyatı gözlənilə və ya onlar qeydə alınmış ola bilər. Bütün digər markalar, malların adları, şirkətin adları, əmtəə nişanları və xidmət nişanları onların müvafiq mülkiyyətçilərinin mülkiyyətidirlər. Əl cihazı və/və ya onunla bağlı proqram təminatı müəllif hüquqlarına, beynəlxalq sazişlərə və, aşağıdakı ABŞ patentlərinin biri və ya bir neçəsi də daxil olmaqla, müxtəlif patentlərə uyğun olaraq qorunur: 6,278,442; 6,271,605; 6,219,694; 6,075,470; 6,073,318; D,445,428; D,433,460; D,416,256. Digər patentlərin dünya üzə digər ölkələrdə qeydiyyatı gözlənilə və ya onlar qeydə alınmış ola bilər. Hazırkı tətbiq olunan patentlərin siyahısı ilə tanış olmaq üçün www.rim.net/patents.shtml ünvanına daxil olmanız xahiş olunur.